# Azərbaycan yazıçılarının XIII qurultayı qarşısında



Dünən AYB-in Natəvan klubunda Azərbaycan Yazıçılar Birliyinin XIII qurultayı ərəfəsində nəsr və dramaturgiya seksiyalarının birgə yığıncağı keçirildi. Tədbiri giriş sözü ilə AYB-in katibi Elçin Hüseynbəyli açaraq növbəti qurultay qarşısında görüləcək işlər haqqında məlumat verdi. O, bildirdi ki, Birliyin üzvlərinin hər on nəfərindən birini nümayəndə seçmək nəzərdə tutulub. Elçin müəllim nəzərə çatdırdı ki, nümayəndə seçilərkən istedad və yaradıcılıq fəallığı əsas meyar götürülməli, çalışmaq lazımdır ki, ədəbiyyat sahəsində xidmətləri olan yazıçılar qurultayda təmsil olsunlar.

Toplantıda Nəsr seksiyasının rəhbəri Səyyad Aran və Dramaturgiya seksiyanın rəhbəri Firuz Mustafa başçılıq etdikləri qurumların işləri haqqında məlumat verdilər.

Müzakirələrdə Əli Əmirli, Səfər Alışarlı, Xeyrəddin Qoca, Nüşabə Məmmədli, Xəyal Rza və başqaları Yazıçılar Birliyinə qəbul vaxtı tələbkarlığın zəruriliyini, imkan daxilində nümayəndə sayının artırılmasını və şair təkliflər etdilər.

Tədbirə yekun vuran E.Hüseynbəyli bildirdi ki, bundan əlavə Yazıçılar Birliyinin yerli bölmələri də ayrıca seçki keçirəcəklər. Bu minvalla qurultayda beş yüzə yaxın nümayəndənin iştirakı nəzərdə tutulmuşdur. Onların sırasında xaricdən dəvət olunmuş qonaqlar, millət vəkilləri və sair şəxslər var. O, yığıncaq iştirakçılarını əmin etdi ki, bütün təklifləri katibliyin iclasında diqqətə çatdıracaq.

***Atababa İSMAYILOĞLU***

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 sentyabr.- S. 11.**